# 2. MƏQSƏDƏ DOĞRU İNAMLA

***(Əvvəli ötən sayımızda)***

Hər bir yazıçının taleyində müəyyən hadisələr baş verir ki, bu hadisələr də əslində, onun yazıçı taleyini müəyyən etmiş olur. Ulduz Qasımın yazıçı taleyini öyrənmək istəyən hər hansı bir tədqiqatçı birinci növbədə onun yaşam yolunu (tərcümeyi-halını) öyrənməklə bərabər, həm də onun yaradıcılığını xüsusi diqqətlə öyrənməli, izləməlidir. Çünki Ulduz Qasım tipli yazıçılar öz həyatlarını yazan sənətkarlar tipinə aiddir.

Fantast yazıçılar Yer kürəsindən kənara çıxaraq başqa planetlərdə baş verən hadisələri özlərinin təxəyyüllərinə uyğun olaraq qurur və yazıya gətirir. Elə yazıçılar da var ki, məxsusi olaraq Yer kürəsində baş verəcək dəyişilmələri (elmi, iqtisadi, siyasi, sosial) öz əsərlərində yüz illər bundan sonrakı mənzərə ilə göstərməyə çalışırlar.

...Bu yerdə Jül Vern yada düşür. Onun təxəyyüllə yaratdıqlarının sonrakı zamanlarda həqiqət olmağı, hətta bir çox hallarda xəritə dəqiqliyi ilə həyati təsdiqini tapmağı yazıçı təxəyyülünün nəyə qadir olduğunu göstərən sübutlardır.

Elə yazıçılar da var ki, yalnız öz hisslərini, duyğularını yazırlar. Zənnimcə, fantastların, tarixi-xronikanı bədii şəkildə əks etdirən ustadların yaşarlıq haqqını kimsə əlindən almır. Amma öz hisslərini, duyğularını yazan, xüsusilə dövrünün mənzərəsini göstərən, yazıya gətirən sənətkarların da yaşamaq haqqını elə onun öz oxucuları, yəni cəmiyyətin özü verir.

Bütün hallarda özünü yazan sənətkarlar cəmiyyətə daha doğma, cəmiyyətə daha yaxın, daha istəkli olurlar.

Ulduz Qasım sənətkar kimi ayrı-ayrı vaxtlarda nəşr olunan əsərləri ilə tanınıb. Onun yaradıcılığının əsas cəhəti kimi biz həyatiliyini təqdir etməyə borcluyuq.

Bu mənada onun *"Tələbə gündəliyi"* lirik-romantik povesti (müəllif əsəri lirik roman adlandırır) bir insan həyatının real təsvirlərini vermək baxımından xüsusilə dəyərlidir. Ulduz Qasım *"Tələbə gündəliyi"* əsəri ilə gənclərin həyatının ləkəsiz bir dövrünü tərənnüm edir, xüsusilə o, əsər boyu bir gəncin öz şəxsiyyətini qorumaq uğrunda və həm də mənəvi haqqı uğrunda mübarizəsini ön plana çəkir.

Bunlar, əlbəttə, hələ Ulduz Qasımın qəhrəmanı Sitarənin nisbətən həyatının gələcək tərəfinə aid olan notlardır. Amma hələ ki, o, məqsədinə doğru ardıcıl, inadlı mübarizə aparmağında özünü haqlı bilir. Hətta müəyyən məqamlarda sabah nəyinsə baş verəcəyini nəzərə almadan bu gün nəyi düzgün hesab edirsə, onun tərəfində durduğunda israrlıdır.

Ulduz Qasımın ədəbi qəhrəmanı Sitarə yumurtadan təzəcə çıxmış, yalnız yem dərdi çəkən quşcuğaz deyil. O, orta məktəbi kifayət qədər mənəvi hazırlıqla başa vurub. Onun təbiətindəki inad əslində mənəvi hazırlığı ilə bağlıdır. Sitarənin üzü gələcəyə aparan qatarı onun tarixi taleyini müəyyən edir. O, qatarda Bakıya yola düşərkən nə imtahanın, nə də sabah nəyin olacağının narahatlığını keçirmir. Əslində, əsərdə onun narahatlıqları imtahanları, qarşısına çıxan problemləri necə həll edəcəyi ilə bağlı kimi görünür. Amma həqiqət başqa cürdür. Sənətkar gənc qız Sitarənin timsalında həyatı necə yaşamağın, hansı əqidə ilə mübarizə aparmağın döyüşçüsünü göstərir. Biz Sitarəni qatara - əsərdə fikrin alt qatından təlqin olunan həyat qatarındakı ilk gününü - müstəqil həyatdakı ilk gününü ədəbi qəhrəmanın həyəcanları, iztirabları, yaşantıları ilə birgə görürük. Ulduz Qasım *"Tələbə gündəliyi"*inin sanki həyat qatarındakı axarına belə başlayır: *"Orta məktəbi qızıl medalla bitirdikdən sonra sənədlərimi götürüb Bakıya getdim. Atam işdən aralaşmadığına görə, məni Bakıya əmimoğlu apardı. Çünki paytaxta ilk dəfə gedirdim. İçimdəki həyəcanı, sevinci sizə çatdıra bilmərəm. Qatar gecə çıxırdı. Sabaha qədər pəncərənin qarşısında oturub yollara, yanından keçdiyimiz şəhərlərə, kəndlərə baxdım. Əmioğlunun israrına baxmayaraq, bir an da olsun gözümü yummadım. Sanki bütün yolların, şəhərlərin, kəndlərin xəritəsini çəkirdim içimdə. Bir dəfəlik içimə həkk edirdim gördüklərimi"*. Necədir, əziz oxucu? Müəllif sanki elə bu günün oxucularını da özü ilə birgə həmin zamana qaytarır. Hər birimizin həyat detalları gözlərimizin önündə canlanır.

Yazıçı Ulduz Qasıma minnətdarlıqla mən də bir xatirəmi burada qısa da olsa yada salmaq istərdim:

Qəbul imtahanlarına əmimin bələdçiliyi ilə gəlmişdim. Aramızda yaş fərqi 13 il idi. Amma bu 13 il mənim üçün elə dünyanın yaşı qədər böyüklük demək idi. Elə bilirdim ki, təkcə əmim yanımda olduğuna görə mən imtahanlardan kəsilməyəcəm. Bir az qabaqlasam da, bunu da deyirəm; axırıncı şifahi imtahandan qiymət alsam da, əmimə üzümü çox kədərli göstərdim. O da heç nə soruşmadı, qolumdan tutub *"gəl bəri, qismət beləymiş"*, - dedi. Amma bir az keçmiş qiymət aldığımı da bildirdim. Əmimə necə böyük əzab verdiyimi, necə böyük qəbahət göstərdiyimi indi təzədən yada salmaq mənim üçün çox ağrılıdır.Və elə o qiymət almaq, bu qiymət almaq... mən Pedoqoji İnstituta daxil oldum.

Belə bir mənzərəni mən Ulduz Qasımın *"Tələbə gündəliyi"*ndə də gördüm. Doğrudur o, həyatının ilk axarında sərt, ancaq ədalətli bir müəllim obrazı ilə qarşılaşır. Cahangir Məmmədlinin sualına cavab verməli olur. Doğrudur, indiki təbirlə həmin suala cavab verməməyin mənfi qiymət kimi qavranılmağını qəbul etmirik. Ancaq o vaxt belə idi. *"Tələbə gündəliyi"* əsərinin qəhrəmanı Sitarə, nəhayət, *"Anna Karenina"* əsərinin hansı cümlə ilə başlandığı haqqında suala doğru cavab verir: *"Bütün xoşbəxt ailələr bir-birinə bənzəyir"*. Yalnız bu cavabdan sonra Sitarədən imtahan götürən gənc müəllim Cahangir Məmmədli üzünə təbəssüm tonu verir və onun cavabını təqdir edir. Bütün bunlar həyatın elə nadir notlarıdır ki, bunları başqa hansı zamanlardasa axtarmaq, hətta oxşarını belə tapmaq mümkün deyil. Bu yerdə Ulduz Qasımın *"Tələbə gündəliyi"*ndən gələn notlar əsasında müəyyən obrazlara münasibət bildirmək yerinə düşərdi.

İlk baxışdan Cahangir Məmmədli Ali məktəbə qəbul imtahanı götürən müəllim obrazı olaraq o qədər də rəğbət doğurmur. Axı, qəbul imtahanına gələn abituriyent ola da bilərdi ki, Tolsoyun *"Anna Karenina"* əsərini hansı cümlə ilə başlamağını yadda saxlaya bilməsin. Amma müəllim həmin başlanğıcı tələb edir. Doğrudur, Sitarə həmin suala cavab verə bilir.

Bəs həmin cümləni olduğu kimi deyə bilməsəydi necə olacaqdı?

Ancaq biz imtahan Cahangir Məmmədliyə sərt münasibət sərgiləmirik. O gözlədiyi cavabı alan kimi gülümsər üzünü göstərməyə xəsislik etmir.

Bu, qərəzsizliyin göstəricisidir. Hər halda Sitarə pedantlığın hökmünə yer qoymur, müəllimindəki qərəzsizlik onun işıqlı yolunu bağlamır.

Bir sözlə, *"Tələbə gündəliyi"* əsərinin Sitarənin imtahan vermə zamanı orijinal həyəcanların yaşantıları kimi oxucu yaddaşına həkk olunur.

Əsərin bu məqamlarında biz Nadirlə, Qönçə ilə, hətta xatırlama miqyasında olsa belə, Qasım baba obrazları ilə tanış oluruq.

Sitarənin hissləri, həyəcanları *"Tələbə gündəliyi"*ndə çox orijinal təsvir olunur. Hətta o, ayrı-ayrı psixoloji məqamları son dərəcə dəqiqliklə yazıya gətirir. Xüsusilə Sitarənin ilk imtahandan qiymət alarkən keçirdiyi hisslərin təsviri xüsusi maraq doğurur: *"Necə sevindim?! Ümumiyyətlə, ömrümdə ilk dəfə idi ki, belə sevinirdim. Sevindiyimdən nə deyəcəyimi unutdum. Və ilk dəfə sevincdən ağladım. Həmişə əsərlərdə adamların sevincdən ağladıqlarını oxuyanda düşünürdüm: "Adam niyə ağlayır? Sevinəndə ancaq gülə bilərsə". İndi anladım ki, sevinəndə də ağlamaq olurmuş. Özü də necə?!*

*Bilirsiniz bu nə deməkdir? Bunu ancaq yaşamaq lazımdır. İnsanın istəyinə, arzusuna çatmağı Allahın böyük lütfüdür yaratdıqlarına. İllərlə çəkdiyim zəhmətlərin, yuxusuz gecələrin bəhrəsini görmək budur! Nadir məni danlamağa başladı:*

*-Səni anlamıram, bu gün ancaq sevinmək günüdür, gülmək günüdür...*

*-Sevindiyimdən ağlayıram...*

*Orta məktəbi medalla bitirdiyimə görə cəmi iki imtahandan "beş" almaq lazım idi. Medal olmasaydı, beş imtahan verməli idim. Allaha şükürlər olsun, mənə yazığı gəldi. Yoxsa o beş imtahanı verənə qədər mən ölərdim həyəcanımdan"*.

Bəlkə də, müəyyən yaş dövrlərini keçirmiş adamlar üçün bu məqamlar o qədər də xüsusi əhəmiyyət kəsb etməyə bilər. Amma elə adamlar var ki, öz həyatlarında həmin hissləri yaşayıblarsa bunu hətta yuxarı yaşlarda da unuda bilmirlər.

Bir oxucu olaraq, indi də həmin məqamları keçirdiyim hisslərlə yaddaşımda bərpa edirəm və görürəm ki, talelərin fərqlərinə baxmayaraq həyatın oxşar cəhətləri çoxdur və Sitarənin yaşantıları ilə mənim də yaşantılarım çox uzlaşa bilir. Sadəcə *"uzlaşa bilir"* ifadəsi yerinə düşmür. Ancaq mən, xüsusilə o məqamlarda həyəcanlar daşıyıram ki, həmin məqamların Sitarənin ruhundan, varlığından keçən notlarını mən də olduğu kimi yaşamışam. Bu, əlbəttə, mənim oxucu qənaətimdir.

Sitarə üçün həyat yolu heç də hamar olmayıb. Hətta ikinci imtahandakı mövzu seçimi üzərində düşüncələrin özü də Sitarənin qətiyyəti, gücü haqqında kifayət qədər informasiya mənbəyidir.

Sitarə bəri başdan hazırlıqlı döyüşçüdür. O bilmədiyi, dərk etmədiyi, qavramadığı məsələ haqqında hələ qabaqcadan fikir yürütmək fikrində olmayıb. O, jurnalist olmaq məqsədi ilə bu imtahanlara qatılıb. Bu o deməkdir ki, o, jurnalistikanı bəri başdan qavrayıb. Qısası, Sitarənin taleyini əslində onun inadı müəyyən edir. İnad isə müəyyən hazırlıq üzərində bərqərar olur.

Qəbul imtahanları üçün Sitarənin ikinci imtahanındakı yazı mövzusu da çox maraqlıdır. Əlbətttə, o çox istəyərdi ki, Səməd Vurğun mövzusunda yazsın. Sitarənin *"Tələbə gündəliyi"*ndəki etirafına əsasən biz anlayırıq ki, o, Səməd Vurğun mövzusunu nə qədər uca tutur, bu mövzu onun üçün nə qədər sevgilidir. Amma müvafiq şərait sanki Sitarədən mənəvi gücünü göstərməyi tələb edir.

Qəbul imtahanları zamanında əsərinin tarixi abidə fonunun mahiyyətini dərk edərək müəllif Sitarənin yazılı imtahan götürən müəllimlərinin adlarını da çəkir: Bəhram müəllim, Kamil müəllim.

Mövzular lövhəyə yazılır. Müəllimlərin hər biri öz missiyalarına uyğun olaraq mövzu haqqında qısa məlumat verirlər. Ulduz Qasımın qəhrəmanı Sitarə də mövzular üzərində seçim aparmalı olur: *"Səməd Vurğun poeziyasını nə üçün sevirəm?"*, *"Mən niyə jurnalist olmaq istəyirəm?"*. Zənnimcə bu günkü test imtahanı verən hər hansı bir ali məktəb həvəslisi üçün bu mövzuların bu şəkildə təqdimi, bəlkə də istehsalı gülüş doğura bilər. Ancaq bu həmin dövrün qanunu və sərt tələbi idi. Əlbəttə, indi qaydalar da dəyişib, əlbəttə, indi oxu prinsipi, cavab vermə metodları da dəyişib. Ancaq həmin dövr hər bir gəncin yazı ilə özünü ifadə etmək gücünü göstərmək baxımından əvəzsiz idi. Çox güman ki, yaxın gələcəkdə gənclərin imtahan zamanı özünü yazı ilə ifadə etmək yönümündə əsaslı tədbirlər görüləcək.

Bir sözlə, Sitarə qəbul imtahanına öz düşüncələri ilə gəlib. Hətta Səməd Vurğun mövzusunu nə qədər sevsə də, yenə də daha orijinal, daha müstəqil mövzuya üstünlük verir: *"Mən niyə jurnalist olmaq istəyirəm?"*. Və hətta *"Tələbə gündəliyi"*ni yazarkən Sitarə deyir ki, həmin sətirləri indiyə qədər xatırlayıram: *"Nə qədər bu dünyada Fələstin dərdi var, nə qədər İrəvan ayrılığı, Təbriz ayrılığı var, nə qədərki uşaqlara, qadınlara ögey baxışlar, zorakılıqlar var, nə qədər ki, insan həyatı alınıb-satılır, nə qədər ki, mənim vətənimi parçalamağa çalışanlar var, pisliklər, acılar var, ayrılıqlar var mən jurnalist olmaq istəyirəm, bütün bunların hamısını görmək, yazmaq istəyirəm! Mən nə qədər ki, iki qardaşı Araz ayırır, nə qədərki vətənində insanlar vətənsizdirlər, mənim yazmaq arzum bitib-tükənməz. Mənim ən böyük dərdim yazmamaqdır. Yazmasam, dərd alıb aparar məni. Boşluqlara, gözəgörünməzliklərə qərq edər. Hələ görmədiyim, yazmadığım nələr var bu dünyada?! İnsanlar yediyini yeyib, yemədiyini zibilliyə tökəndə, bir loxmaya həsrət qalanları görmək istəyirəm. Onlara necəsə, nə iləsə kömək etmək istəyirəm. Allahın bizə bağışladığı gözəllikləri tərənnüm etmək arzusu ilə yaşayıram. Yazılarımla bu gözəllikləri insanlara çatdırmağa çalışıram. Arazımın laylalarını, bayatılarını lap uzaqlara yetirmək həvəsi, bu elə-obaya olan sonsuz istəyim məni jurnalist olmağa məcbur edir"*.

Bu qeydlər göstərir ki, gənc jurnalist olmaq istəyi ilə özünü həyatın mübarizi olaraq, həqiqətlər uğrunda döyüşçüsü olaraq təsəvvür etmək gənc Sitarəyə təsadüfi ilham duyğuları deyil, o yalnız romantik hisslərlə jurnalist olmaq məqsədini, qayəsini qələmə almır, həm də əslində gələcək mübarizələrinin motivini qələmə alır.

Qısası, onu demək olar ki, gənc bir qız - orta məktəb məzunu öz məramını qədərincə aydınlaşdırıb. O, jurnalist olmaq yolunu sadəcə el içində tanınmaq, söz sahibi olmaq məqsədi ilə seçmir. Bu qeydlər göstərir ki, o, döyüşçü əzmindədir. O başqa məsələdir ki, onun döyüşçü əzmini qədərincə göstərmək üçün meydan olacaq, olmayacaq - bütün bunlar hamısı artıq gələcəyin işidir. Tale Sitarənin ünvanına hansı qismətləri yazacaq, bir az da materialist düşüncə ilə ifadə etsək, Sitarə öz yolunu mübarizə ilə necə seçəcək?

***(Davamı 5-ci səhifədə)***

*(Əvvəli 4-cü səhifədə)*

Ulduz Qasımın *"Tələbə gündəliyi"* lirik-romantik povesti (əlbəttə, biz bunu qeyd etdik ki, müəllif əsərini lirik roman adlandırır) birinci növbədə canlılığı ilə diqqəti cəlb edir. Az-çox tələbə həyatı yaşamış, tələbəlik arzusu ilə imtahan vermiş hər bir şəxs bu əsərdə müəyyən çırpıntıların özünə doğma olduğunu və yaxud öz həyatının müəyyən hissəsi, parçası olduğunu etiraf edə bilər.

Bir sözlə, həyat göstərir ki, hər hansı bir adamın yaşantısı asanlıqla unudulub getmir. O, bu və ya digər başqa şəxsin həyatında bənzər hisslərlə, həyəcanlarla təkrarlanır.

Sitarənin *"Tələbə gündəliyi"*nin ən maraqlı səhifələrindən biri də onun əmisi oğlu, həm də müəllimi Nadirlə bağlıdır. Zənnimizcə, Nadir əsərə təsadüfən daxil edilməmiş obrazdır. Bu obrazda müəllif özünün mənəvi düşüncə mühitində həyatı tənzimləyən adamların obrazını yaratmaq istəyib. Çünki Nadir bir çox hallarda Sitarənin həyəcanlarının mahiyyətini yaşayır. Elə bil ki, Sitarə bilik yarışmasında aldığı qiymətlə onun həyat yarışmasına təkan verir. Zənnimizcə, bu da insanlığın zamanına görə dövrə, mühitə uyğun olaraq elmə doğru açılan qapıda ayrı-ayrı adamların münasibətinin göstəricisidir.

Nadir istiqanlı adamdır. O, bütün varlığı ilə Sitarənin qəbul imtahanından yüksək qiymətlər almasını arzulayır. Çünki kənddə-kəsəkdə, el-obada Sitarənin yüksk qiymət alması elə onun özünün yüksək qiymət alması deməkdir.

Nadir bütün çırpıntıları ilə təkcə Sitarənin ali məktəbə qəbul olmasının həyəcanlarını yaşamır. Həm də özünün bələdçilik həyəcanlarını yaşayır.

Sitarənin bu məqamdakı sevincdən ağlamaq situasiyaların yada salmaq, zənnimcə, çox təsirlidir. Hətta Sitarəyə elə gəlirdi ki, heç vaxt insan sevincdən ağlaya bilməz. Amma insanın kədərdən ağlamaq hisslərinin qarşısını almaq da mümkün deyil. Sitarə bu hissləri içində yaşayarkən ona həmduyğu sahibi olaraq Nadirin münasibəti maraq doğurur. Qısası, sözün o yeridir ki, Nadir bütün varlığı ilə Sitarənin yanındadır, bu da dövrün göstəricisidir. Kaş həmin 70-80-ci illərin ovqatını axıracan dərk etmək mümkün olaydı. Bütün hallarda Ulduz Qasımın *"Tələbə gündəliyi"*ndəki ovqat elmə müqəddəs münasibətin təlqini baxımından əvəzsizdir: *"Nəticəni öyrənməyə gedəndə, sevinənlərin və kədərlənənlərin təzadını görəndə nə edəcəyini bilmirsən. Sevinənlərlə sevinmək, kədərlənənlərlə kədərlənmək istəyirsən, özünü də unudursan. Mən yenə də nəticələrin asıldığı tərəfə gedə bilmədim. Nadir ürəyimi oxuyurmuş kimi:*

*- Sən səbr et, Sitarə, mən bu dəqiqə gəlirəm! - dedi.*

*- ...*

*Onun qayıtması 10 dəqiqədən çox oldu, amma mənə elə gəlirdi ki, 10 il oldu. Bilirsiniz, bir adam deyəndə ki, bir gün mənə bir il gəldi düşünürdüm "görəsən, bu necə olur?".*

*İndi başa düşürdüm bu nə deməkdir.*

*Nadir bikef qayıtdı. Ürəyim elə döyünməyə başladı.*

*- ...*

*- Mən elə bilirdim... yaxşı yazmışam...*

*- ...*

*- Onda gedək bilet alaq, gedək rayona...*

*- Sən nə tez pəs elədin, əmiqızı?...*

*- Daha nə eləmək olar? Qismət deyilmiş...*

*Birdən-birə Nadirin üzü açıldı, gülümsəməyə başladı.*

*- Dözə bilmərəm sənin bikeflənməyinə, əmiqızı...*

*- Nə?*

*- Qiymət almısan, Allaha şükür.*

*Bir anlıq duruxdum. Başa düşməyə çalışdım onun dediklərini.*

*- Necə yəni? Mən əsas imtahanlara keçmişəm?*

*- Hə.*

*- Bəs sən bunu necə zarafata sala bilərsən?*

*Ürəyimdə Nadirə çox hirsləndim. Mən burada o biri dünyaya gedib gəlmişəm. Bu isə zarafata salır. Ancaq bunları ona deyə bilməzdim. Birincisi, o məndən çox böyükdü. İkincisi, o mənim müəllimim olub. Üçüncüsü, mənim tərbiyəm buna yol verməz. Ona görə susdum.*

*İmtahanların hamısından yüksək qiymət alıb universitetə qəbul oldum".* Bu kiçik reportaj imtahanqabağı, imtahan ərəfəsində, bir sözlə, imtahan zamanı yaşanan hisslərin kifayət qədər göstəricisidir. Əsas da ona görə ki, burada imtahan verənin, imtahan verəni müşayiət edənin və ən başlıcası, o dövrün təbiətini göstərən notlar kifayət qədər öz əksini tapır.

Ulduz Qasımın təqdim etdiyi kiçik parçada ali təhsil almağın cəmiyyət üçün nə demək olduğu qədərincə aydın görünür. Nadir, Nadirin bacısı, Sitarəni oxumaq üçün kənddən yola salanlar, hələ Sitarəylə birgə imtahan verməyə gələnlərin qohum-əqrabaları... bütöv bir axının abituriyentin, yəni qəbula gəlmiş olan gəncin imtahan dövrü həyəcanlarını sadəcə mənafe hissləri, duyğuları kimi yozmaq olmaz. Bu münasibət oxuya münasibət idi. Yəni, gənclərin gələcək taleyinə məsuliyyət hissi ilə bağlı idi. Biz həmin məsuliyyət hissinin təzahürünü məhz Sitarənin onu müşayiət edən adamlarla bağlı təəssüratlarında, hisslərində görə bilirik. Xüsusilə, Qönçə obrazı sonralar da yaddan çıxmır. Qönçə kənddən gələn gənclərin dayaq nöqtəsi kimi əbədiləşmiş bir obraz olaraq yaddaşımıza hopur.

Bir vaxt Qönçələr kənddən gələn gənclərin təhsil üçün istəklərinə qapı açırdı, qucaq açırdı, onlara hər cür qayğı göstərirdi, özü də indiki təmənnalıq fəaliyyətindən fərqli olaraq heç bir əvəz gözləmirdilər. Biz yalnız həmin zamana Qönçələrin təbiəti ilə qiymət verə bilərik.

* * *

Bir sözlə, Sitarə ali məktəbə qəbul ola bilir. Buna onun təbii haqqı kimi, əzab-əziyyətlərinin qanunauyğun yekunu kimi baxırıq. Axı kənddə heç kim onun jurnalist olmaq istəyini ağıllı iş saymırdı, başqa sözlə, *"qız hara, jurnalist hara"* düşüncəsi ilə qiymət verirdilər. Amma Sitarə sübut edir ki, dövrün nüfuzlu ixtisasına, lap bir az da açıq desək, prokuror övladlarının, katib övladlarının, varlı adamlarının varislərinin yiyələnə biləcəyə ixtisasa sadəcə bir kənd təsərrüfatı işçisinin ailəsini təmsil edən bir qız da yiyələnə bilər.

Sitarə öz gündəliyini axıracan səmimiyyətlə aparır.

Əlbəttə, biz burada jurnalist, yazıçı Ulduz Qasımın istedadını qədərincə qiymətləndirməyi bacarmalıyıq. Çünki Ulduz Qasım özünün mənəvi mühitində yaratdığı Sitarə obrazını məxsusi olaraq avtobioqrafizm əsasında yaradır. Başqa sözlə, onun özünün həyatı gündəliyinə daxil edə bilir. Zənnimizcə, Sitarənin gündəliyinin bir üstün cəhəti də elə onun təbii hissləri qorumağı ilə bağlıdır.

Ulduz Qasım Sitarənin Əshabi-Kəhf səfərini, bu səfərin mənəvi zənginlik, təskinlik, xüsusilə təmkinlik məqamını təsvir etməsi çox dəyərlidir. Hiss olunur ki, müəllif burada mistikadan çox insanların nədən təskinlik tapmaq istədiklərinə daha çox önəm verir. Bir sözlə, həyatın bura qədərki mərhələsi Ulduzun bir gəncin taleyi timsalında məqsədə doğru inamlı yolunun müəyyən mərhələsinin başa çatdığını göstərir.

Bu yerdə Sitarənin düşüncələri ilə bağlı maraqlı məqamlar da üzə çıxır. Bu da göstərir ki, hər hansı bir insan üçün onun doğulub-böyüdüyü yer, kənd, yaşayışı zamanı gördüyü mənzərə onun yaddaşının əsas obrazlarıdır. Hətta Sitarə öz yuxularında belə kəndinə dəxli olmayan insanları aparıb öz kəndində yuxusunun urcahına çıxarır: *"Qəribədir, insanın doğulub-böyüdüyü yer qədər əziz heç bir yer ola bilməz. Bəlkə də inanmazsınız, indiyə qədər bütün gördüyüm yuxular kəndimizdə cərəyan edir. Bakıdakı adamları, hadisələri belə orada görürəm. Bizim kəndimizə dəxli olmayan hadisələri belə. Bəzən yuxudan qalxanda gülməyim gəlir: "Filankəs hara, bizim kənd hara? Qəribədir...".* Bu gənc qızın öz yuxularına münasibətidir. Özü də birinci növbədə ona görə dəyərlidir ki, insanın doğulub-böyüdüyü yer haqqında düşüncələridir. Əsas da odur ki, insan harada doğulub-böyüyürsə demək, onun üçün son ana qədər əziz olan yer elə o yerlərdir. Bu yerdə Sitarə (müəllif Ulduz Qasım) əslində onu demək istəyir ki, insan kimliyindən asılı olmayaraq öz yurdu ilə, məkanı ilə tamdır, bütövdür. Və sözünə davam edərkən əslində bu düşüncələri onun varlığından gələn səs kimi oxucu təbiiliklə qəbul edir: *"Ona görə deyirlər ki, vətən insanın doğulduğu yerdən başlanır... Və o qədər adama doğma olan heç nə yoxdur. Gözəl olmasa belə. Səhra olsa belə onun üçün darıxırsan ən çətin anlarında, ən şad günlərində məhz orada olmaq istəyirsən. Bu, torpağın cazibəsidir, gücüdür. Və sən də bu gücün cazibəsindən qaça bilməzsən. Məncə, insanlıq xəmirindən yoğrulanlar belə düşünürlər".* Nə qədər duyğulu, nə qəsər təbii hisslərdir. Əgər insanın doğulub-böyüdüyü ona əziz olmasaydı, onda səhrada olan dağa, dağda olan səhraya doğru qaçardı. Amma əsərin müəllifi məqamına görə çox ustalıqla yurd düşüncələrini son dərəcə sərrast duyğularla qələmə gətirir.

Tarix boyu insanlar inamları uğrunda vuruşublar. Eyni zamanda doğulub-böyüdükləri yurd uğrunda vuruşublar. Məhz insanı mübarizəyə ruhlandıran inam və yurd anlamı olub.

Babəki mübarizəyə sövq edən hansı duyğudur, yaxud, Azərbaycanın tarixi taleyində xüsusi rolu, yeri olan qəhrəmanların mübarizələrində əsas tutduqları ideyanı, məsləki ən çox yurdla, vətənlə bağlamaq zəruri şərt olaraq gözlərimizin qarşısında əsas fikir hökmü kimi özünü diktə edir.

Ulduz Qasım da yeri gəldikcə, hətta kənddən şəhərə gələndə, yaxud öz kəndindən hansı bir tərəfəsə gedəndə belə yurd mahiyyətini diqqətə çəkir. Özünün ədəbi qəhrəmanının timsalında onun düşüncələrinə işıq salmaqla yurda münasibətini ifadə edir.

# 2. MƏQSƏDƏ DOĞRU İNAMLA

bu yolları keçməsəydi, çox güman ki, onun özü də bu istiliklə, bu doğmalıqla Sitarə obrazında kamillik müəllifliyinə çatmazdı.

Kəndə qayıdış, ailədə onun Ali məktəbə qəbul olunması xəbəri qeyri-adi dərəcədə mənəvi zəlzələ kimi qarşılanır. Pis odur ki, Sitarənin gözlədiyinin əksinə olaraq qatar kəndə gec çatdığı üçün camaatın bu məsələdən elə həmin andaca xəbəri olmur.

Zənnimizcə, Ulduz Qasımın kəndə gec çatan qatar obrazı da təsadüfi yaradılmayıb. Bu xəbər qatarının gücü, mənəvi üstünlüyü, ümumiyyətlə, dəyəri çox sonralar dərk olunacaqdı. Baxmayaraq ki, yazıçı ədəbi qəhrəmanını evə gətirir, səhəri günü onun doğmaları - atası və digərləri Sitarənin Ali məktəbə qəbul olunmaq sevincini Əshabi-Kəhfdə qurbanla qutlamaq qənaətində olurlar. Burada maraqlı bir sürücü Manaf obrazı da diqqəti cəlb edir. Bu adamın timsalında biz yalnız öz mənafeyini güdən, öz marağının əsiri olan adamların obrazını görür, tanıyırıq. Qısası, Manaf belə bir adamdır ki, ona pul ver, istəyirsən cəhənnəmə apar, istəyirsən cənnətə. Amma Manaf Əshabi-Kəhf ziyarətgahına gedərkən qeyri-adi təbiət mənzərələrini də görmüşdü. Çox təəssüf ki, o bu mənzərələri dəyərləndirmək gücündə deyil. Bir sözlə, Sitarə həyat yolunun başlanğıcı boyu qeyri-adilikləri istər yaxşıya, istər pisə olsun, qədərincə öz

Bir anlığa belə düşünək ki, heç Ulduz Qasım bir "Tələbə gündəliyi" yazmayıb. Onun əsərini ayrı-ayrı həyat motivləri kimi qavramalı olsaq, demək, həmin əsərin ayrı-ayrı parçalarını biz yurdla bağlı düşüncələr kimi də qəbul etməliyik. Çünki Ulduz Qasımın Sitarənin düşüncələri kimi təqdim olunan yurd duyğuları əslində müstəqil vətən hissləridir. Biz bu hissləri qavramaq baxımından gərək Ulduz Qasımı bir yazıçı kimi onun nə dediyi ilə birgə başa düşək.

Sitarə təbiət etibarı ilə böyüdüyü mühitə son dərəcə bağlıdır. Hətta Ali məktəbə qəbul olunandan sonra belə o, kənddən qopub sevib-seçdiyi ixtisasın arxasınca Ali məktəb həyatına qayıtmaqda belə çətinlik çəkir. Bunu da biz Sitarənin uşaqlığı kimi yox, bir uşağın ana qucağından ayrılmaq çətinliyi kimi başa düşməliyik.

Əslinə qalsa, Sitarə öz həyatını tələbə gündəliyinə çevirərkən özündən sonrakı gənclərə təlqin etmək istəyir ki, onların ana qucağından ayrılmaq çətinliyini yaxşı başa düşür. Ancaq bir barama qurdu - ipək qurdu öz yuvasından canlı olaraq təzədən çıxmaq üçün o, ipəkdən hördüyü mənzili dağıtmalıdır, qanad açmalıdır və öz fəzasına doğru uçmalıdır.

Müəllifin fəlsəfi düşüncəsinə görə durğunluq insan həyatının ölümüdür. Baxmayaraq ki, durğunluqda bir sakitlik var. Ancaq hər hansı bir sakitlik insan həyatını uçmaq ehtiyacından məhrum edir, onu hərəkətdən saxlayır. Başqa sözlə, gələcək yeni mərhələ üçün istəkdən məhrum edir. Bir sözlə, həyatın varisliyi yalnız hərəkətlə mümkündür.

**13.06.2022**